Azərbaycan dili 10-cu sinif

1.Dodaqlanan qalın saitli sözü göstərin.
a)dəniz b)cücə c)quzu d)qələm e)dəmir

2. Ahəng qanununa tabe olmayan sözü göstərin.
a)ömür b)həyat c)qaşıq d)dərzi e)kələm

3.Hansı sözlər hecalara düzgün bölünməyib?
a)sür-ü-cü-lər,şə-hər-imiz b)ə-kin-çi-dən,ü-züm-çü-lük
c)şa-gird-lər,mək-təb-li-lər d)ya-zı-çı-lıq,fə-a-liy-yət
e)hə-ya-tı-mız,bə-ra-bər-lik

4.Antonim sözləri göstərin:
a)yavaş-yavaş b)nəhəng-böyük c)yaxşılıq-pislik
d)tünd-qırmızı e)arzu-istək

5.Sinonim sözləri hansıdır?
a)səhər-axşam b)gecə-gündüz c)soyuq-isti
d)acı-şirin e)yoxsul-kasıb

6.Vurğusu dəyişməklə mənası dəyişə bilən sözlər cərgəsini göstərin.
a) ovçu,kamal b) doktor,kabinet c) redaktor,firma
d) görüş,boyun e) alın,gəlin

7.”Sərlövhə” sözünün tərcüməsini göstərin.
a) заглавие b) порядок c) полномочие
d) реклама e) распоряжение

8.Hansı cümlədə çıxışlıq halda olan isim var?
a) Qəfildən əsən külək, nəhayət,kəsildi.
b) Arif məktəbdən evə qayıtdı.
c) Stolun üstündə güldan qoyulmuşdu.
d) Qənddan stolun üstündə idi.
e) Birdən yağış yağdı.

9. Adi dərəcədə olan sifətlərin cərgəsini göstərin.
a) uzunsov,qırmızı b) sarı,uzun c) kiçik,bapbalaca
d) gözəl,tumturş e) sapsarı,qıpqırmızı

10.Tərkibində qeyri-müəyyən miqdar sayı işlənmiş cümləni göstərin.
a) Səid üçüncü sinfə keçmişdi.
b) Mən beş yüz bal toplamalıyam.
c) İmtahana bir həftə qalırdı.
d) Musa Kərimə iki qələm verdi.
e) Mən Azərbaycan dilində xeyli söz öyrənmişəm.

11.Sözlərdən biri əvəzlikdir:
a) əlbəttə b) məgər c) həmin d) başqa e) lakin

12.”Mən ömrümdə bir gün də əməksiz yaşamadım”.(M.Dilbazi) nümunəsindəki xəbər felin hansı şəklindədir?
a)əmr b)xəbər c)arzu d)lazım e)vacib

13.Biri “sifət+isim” modelinə uyğun söz birləşməsi deyil.
a)göy karandaş b)çoxlu c)iti bıçaq
d)duzlu xörək e)tənbəl uşaq

14.Biri tabesiz mürəkkəb cümlə deyil:
a) Zəng vuruldu və dərs başlandı.
b) Çalğıçılar çalır,toya gələnlər rəqs edirdilər.
c) Göy guruldadı,yağış yağdı.
d) Mətanət bilirdi ki, rəfiqəsi kitab oxumağı çox sevir.
e) Dəniz uğuldayır,ləpələr var qüvvəsi ilə sahildəki qayalığa çırpılırdı.

15.Hansı cümlələrdə ismi xəbər işlənməmişdir?
1.Təbiət gözəldir.
2.Baykal dünyanın ən dərin göludür.
3.Hər eşitdiyin sözə inanma.
4.Müəllim müqəddəs varlıqdır.
5.Pis adətlərdən əl çəkin.
a) 1,2,3 b) 1,4 c) 3,5 d) 1,2,4 e) 3,4,5

**Mətni oxuyan və 16-20-ci suallara cavab verin.**

1.Bir qəza ucbatından körpə uşaqlar valideynlərini itirirlər.2.Həmin uşaqlar qoca babaları sahib çıxır və sevərək onları böyütməyə başlayır.3.Hadisədən iki-üç il keçəndən sonra baba xəstələnir və taqətsiz bir şəkildə ölüm yatağına uzanır,zavallı körpələr isə babanın başı üzərində məzlum-məzlum dayanır.4.Baba:
-Allahım,balalarıma kim sahib çıxacaq?5.Necə olacaq onların halı? 6.Yox,mən öl.....,uşaqları böyütməliyəm,axı bu, mənim borcumdur.
7.Hadisədən sonra baba bir neçə il yaşayır

16.Altıncı cümlənin xəbəri hansı variant olmalıdır?
a) ölməyəcəm b) ölmüşəm c) ölmürəm
d) ölməməliyəm e) ölürəm

17.Dördüncü cümlədə “Allahım” sözünün sintaktik vəzifəsi nədir?
a) xitab b) tamamlıq c) mübtəda d) xəbər e) təyin

18.İkinci cümlədəki “qoca” sözü haqqında verilənlərdən hansı doğrudur?
a)İsimdir b) Quruluşcu sadədir.
c) Ahəng qanununa tabe deyil. d) Zərfdir
e) Çoxaltma dərəcəsindədir.

19.Beşinci cümlədə altından xətt çəkilmiş əvəzlik hansı sözün əvəzinə işlənmişdir?
a) oğlanlarımın b) qızlarımın c) valideynlərimin
d) nəvələrimin e) qardaşlarımın

20.İkinci cümlədə “sevərək” sözü haqında verilənlərin hansı doğrudur?
a) feldən düzələn sifətdir b) məsdərdir c) feli sifətdir
d) zərfdir e) feli bağlamadır